Azərbaycan Respublikasının
BMT yanında Daimi
Nümayəndəliyi

Permanent Mission of the
Republic of Azerbaijan
to the United Nations

633 Third Avenue, Suite 3210, New York, N.Y. 10017
Tel.: (212) 371-2559, 371-2832 (ext. 101); Fax: (212) 371-2784, (646) 738-6143

AZ/ 116 /20

"28" August 2020

Excellency,

Upon instructions from my Government, I have the honour to convey to you a copy of the letter from H.E. Mr. Ali Ahmadov, Deputy Prime Minister of the Republic of Azerbaijan, Chair of the National Coordination Council on Sustainable Development.

Please accept, Excellency, the assurances of my highest consideration.

Yashar Aliyev
Ambassador
Permanent Representative

H.E. Mr. Munir Akram
President of the United Nations Economic and Social Council
New York

**H.E. Munir Akram**
**The seventy-sixth President of the**
**Economic and Social Council (ECOSOC)**
**of the United Nations**

Excellency,

First and foremost, I would like to greet you and express my sincere respect and esteem.

As an active participant of regional and global initiatives, the Republic of Azerbaijan exerts utmost efforts to contribute to addressing global problems and new emerging challenge.

Meanwhile, having fully committed to 2030 Agenda on Sustainable Development, the Republic of Azerbaijan prioritized building up opportunities for inclusive and sustainable economic growth, and ensuring the dynamic development of national economy as well as the reliable solutions for social and environmental challenges.

Achievement of SDG-related commitments represents one of the crucial components of development policy of the Government of Azerbaijan. Social and economic policies being pursued over the past decades have resulted in economic leap, improved the welfare of the population, significantly reduced the poverty and unemployment rate and transformed our country into the economic and cultural hub of the region.

Given the fact that the above-mentioned economic leap has gone hand in hand with the Millennium Development Goals and now with the Sustainable Development Goals, we managed to translate the global SDGs into a national context by aligning national plans and strategies with these goals and targets. Meanwhile, our Government established the National Coordination Council on Sustainable Development (NCCSD) as a high-level institutional mechanism to ensure inclusive stakeholder participation and policy coherence.

Two Voluntary National Reviews of Azerbaijan, presented in 2017 and 2019 explicitly illustrates on how our Government has successfully fulfilled its commitment to effectively implement the 2030 Agenda on Sustainable Development. As a result of continuous efforts over the past five years, Azerbaijan is ranked among top countries in the Eastern Europe and

CIS, and was the leader country in the region on SDG Index of the 2020 Report of United Nations Sustainable Development Solutions Network.

Dear Mr. President,

The COVID-19 pandemic has plunged us into an acute health and economic crisis, the severity of which has not been observed in nearly a century. Indeed, the pandemic has revealed the world's fragilities not just in terms of health emergency, but also the economic crisis. The Government of Azerbaijan admits and joins the initiatives of the United Nations System targeting the international community to move ahead with a collective response in unity and solidarity. In this regard, Azerbaijan has contributed $10 million to the COVID-19 Appeal Fund established by the WHO to support vulnerable countries to eliminate the negative impacts of COVID-19 around the world. I do hope that by the end of this year the COVID-19 will come to end thus enabling the forthcoming HLPF in 2021 to be a fruitful platform to discuss the challenges and recovery actions for the post-pandemic period.

Taking into account the progress and challenges of Azerbaijan in achieving the 2030 Agenda on Sustainable Development, I am privileged to inform of the decision of the Government of Azerbaijan to present its Third Voluntary National Review during HLPF 2021, to be held under the auspices of ECOSOC. In this regard, on behalf of the Government of Azerbaijan, I will highly appreciate if Your Excellency could arrange the necessary procedures for inclusion of the Republic of Azerbaijan in the relevant list of countries that will present their VNRs during the next HLPF in 2021.

Please accept, Excellency, the assurances of my highest consideration.

**Sincerely,**

**Ali Ahmadov**

**Deputy Prime Minister of the Republic of Azerbaijan** 25.08.2020

**Chairman of the National Coordination Council on Sustainable Development of Azerbaijan Republic**

**His Excellency, Munir Akram**
**President of the Economic and Social Council (ECOSOC)**
**United Nations.**

**Birləşmiş Millətlər Təşkilatının**
**İqtisadi və Sosial Şurasının**
**76-cı prezidenti**
**cənab Munir Əkrəmə**

2021-ci ildə təşkil olunacaq Yüksək Səviyyəli Siyasi Foruma Azərbaycan Hökuməti tərəfindən Könüllü Milli Hesabatın təqdim edilməsi barədə

**Zati-aliləri,**
**Hörmətli cənab Əkrəm!**

İlk növbədə Sizi salamlayır, dərin hörmət və ehtiramımı çatdırmaq istərdim.

Regional və beynəlxalq təşəbbüslərin fəal iştirakçısı olan Azərbaycan Respublikası yeni yaranan çağırışların və qlobal problemlərin həllinə töhfə verməyə yüksək səy göstərməkdədir.

Eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının (BMT) "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik" təşəbbüsündən irəli gələn Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması, xüsusilə inklüziv və dayanıqlı iqtisadi artımın, habelə milli iqtisadiyyatın dinamik inkişafının təmin edilməsi, sosial və ekoloji çətinliklərin səmərəli həlli Azərbaycan Respublikasının inkişaf gündəliyinin prioritetləri sırasındadır.

Azərbaycan Hökuməti tərəfindən həyata keçirilən inkişaf strategiyaları və proqramlarının vacib komponentləri Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn öhdəlikləri və onun müvafiq hədəflərini özündə əks etdirir. Son onilliklərdə həyata keçirilən effektiv sosial-iqtisadi siyasət nəticəsində iqtisadi yüksəlişin əldə edilməsi, əhalinin rifah halının yaxşılaşdırılması, yoxsulluğun və işsizliyin əhəmiyyətli dərəcədə azaldılması ölkəmizi regionun iqtisadi və mədəni mərkəzinə çevirmişdir.

Cəmiyyətin bütün təbəqələrini əhatə edən sosial-iqtisadi siyasət nəticəsində əldə edilmiş iqtisadi yüksəliş BMT-nin Minilliyin İnkişaf Məqsədləri ilə yanaşı, "heç kimin geridə qalmaması" prinsipinə əsaslanan Dayanıqlı İnkişaf Məqsədlərinin də səmərəli icrası ilə müşahidə olunmuşdur. Bu xüsusda, "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik" təşəbbüsündən irəli gələn məqsəd, hədəf və göstəricilər əsas strateji sənədlərə inteqrasiya

olunmaqla, milli kontekstə uyğunlaşdırılmışdır. Adıçəkilən təşəbbüsün reallaşdırılması istiqamətində yüksək səviyyəli insitutusional mexanizmin formalaşdırılması, bütün maraqlı tərəflər cəlb olunmaqla dövlət orqanlarının səmərəli koordinasiyasının və bu sahədə siyasi inteqrasiyanın təmin edilməsi məqsədilə Hökumət tərəfindən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

Bununla yanaşı, 2017-ci və 2019-cu illərdə ölkəmiz tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna təqdim edilən iki Könüllü Milli Hesabat, "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəliyi"ndən irəli gələn öhdəliklərin uğurlu icrasının bariz nümunəsidir. Son beş ildə bu sahədə davamlı səylərin göstərilməsi nəticəsində, BMT üçün Qlobal Təşəbbüs olan Dayanıqlı İnkişaf Həlləri Şəbəkəsinin Katibliyi tərəfindən hesablanmış Dayanıqlı İnkişaf İndeksinə əsasən ölkəmiz qabaqcıl Şərqi Avropa və Müstəqil Dövlətlər Birliyi ölkələri arasında aparıcı mövqedə qərarlaşmaqla yanaşı, region ölkələri arasında liderlik qazanmışdır.

**Hörmətli cənab Prezident!**

Son dövrlərdə dünyada "COVID-19" pandemiyasının təsirlərinin geniş yayılması nəticəsində iqtisadi fəaliyyət sahələri və səhiyyə sferası uzun müddət ərzində müşahidə edilməyən ciddi böhranlara məruz qalmışdır. Bu pandemiya, təcili səhiyyə sistemi ilə yanaşı, bir sıra iqtisadi fəaliyyət sahələrinin həssaslığını və bu istiqamətdə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin vacibliyini dünya ictimaiyyətinə göstərmişdir.

Qeyd olunan müasir çağırışların beynəlxalq ictimaiyyət tərəfindən birlik və həmrəylik ruhunda həllinə töhfə vermək məqsədilə Azərbaycan Hökuməti BMT sisteminin sözügedən təşəbbüslərinə qoşulmuş və bu istiqamətdə səylərin dəstəklənməsini davam etdirməkdədir. Adıçəkilən səylərin davamı olaraq, Azərbaycan Hökuməti 10 milyon ABŞ dolları məbləğində vəsaiti dünya üzrə "COVID-19" pandemiyasının mənfi təsirlərinin aradan qaldırılmasının dəstəklənməsi məqsədilə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yaradılmış "COVID-19 Həmrəylik Fondu"na ianə etmişdir.

Ümid edirəm ki, "COVID-19" pandemiyasının cari ilin sonuna kimi bitməsi, 2021-ci ildə keçiriləcək Yüksək Səviyyəli Siyasi Forum çərçivəsində post-pandemiya dövrünün çətinliklərinin və bərpa tədbirlərinin geniş müzakirəsi məqsədilə məhsuldar platformanın yaradılmasına imkan verəcəkdir.

Bu baxımdan, "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəliyi"nin həyata keçirilməsi istiqamətində ölkəmiz tərəfindən əldə olunan nailiyyətləri və qarşıya çıxan çətinlikləri nəzərə alaraq, BMT-nin İqtisadi və Sosial Şurasının himayəsi altında 2021-ci ildə keçiriləcək Yüksək Səviyyəli Siyasi Forumu müddətində Azərbaycan tərəfindən

Üçüncü Könüllü Milli Hesabatın təqdim olunacağı barədə Azərbaycan Hökumətinin qərarını diqqətinizə çatdırmaqdan şərəf duyduğumu bildirirəm.

Bununla əlaqədar, Azərbaycan Hökuməti adından səlahiyyətli nümayəndə olaraq, 2021-ci ildə keçiriləcək Yüksək Səviyyəli Siyasi Forumu müddətində Könüllü Milli Hesabatlar təqdim edəcək ölkələrin siyahısına Azərbaycan Respublikasının daxil edilməsi məqsədilə zəruri prosedura qaydalarının Zati-alilərinizin tərəfindən tənzimlənməsini yüksək qiymətləndirərdim.

Fürsətdən istifadə edərək, dərin hörmət və yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Azərbaycan Respublikası Baş Nazirinin müavini** **Əli Əhmədov**
**Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri**